# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# «Gömrük brokerlərinin dövlət reyestrinin aparılması Qaydaları»nın təsdiq edilməsi haqqında

# Qərar № 230

***Bakı şəhəri, 12 oktyabr 2012-ci il***

«Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli fərmanının 1.1.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. «Gömrük brokerlərinin dövlət reyestrinin aparılması Qaydaları» təsdiq edilsin (əlavə olunur).

***Azərbaycan Respublikasının Baş naziri***

***Artur RASİ-ZADƏ***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (14 oktyabr 2012-ci il, № 231) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir ( 31 oktyabr***
***2012-ci il, № 10, maddə 1012) («VneshExpertService» LLC).***

---

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2012-ci il 12 oktyabr tarixli*
*230 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

# Gömrük brokerlərinin dövlət reyestrinin aparılması Qaydaları

## *1. Ümumi müddəalar*

1.1. Bu qaydalar Azərbaycan Respublikası Gömrük Məcəlləsinin (bundan sonra — Gömrük Məcəlləsi) 22.5-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və gömrük brokerlərinin dövlət reyestrinin aparılması qaydalarını müəyyən edir.

1.2. Gömrük brokerlərinin dövlət reyestrinin aparılması Gömrük Məcəlləsinin 22-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi (bundan sonra — Komitə) tərəfindən həyata keçirilir.

1.3. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq gömrük brokeri fəaliyyəti üçün lisenziya almış hüquqi şəxslər gömrük brokerlərinin dövlət reyestrinə daxil edilirlər.

1.4. Gömrük brokerlərinin dövlət reyestrinin aparılması kağız üzərində yazılı və elektron formada həyata keçirilir.

1.5. Komitə gömrük brokerlərinin dövlət reyestrinə daxil edilmiş gömrük brokerlərinin adları haqqında məlumatları öz mətbu orqanında nəşr edir, rəsmi internet saytında yerləşdirir və eyni zamanda, dövlət reyestrində olan dəyişikliklər barədə yeniləşdirilmiş məlumatların üç ayda bir dəfədən az olmayaraq, Komitənin rəsmi internet saytında yerləşdirilməsini təmin edir.

## *2. Gömrük brokerlərinin dövlət reyestrinə daxil edilən məlumatlar*

Gömrük brokerlərinin dövlət reyestrinə daxil edilən məlumatlar bu qaydaların əlavəsində göstərilən formada tərtib edilir.

## *3. Gömrük brokerlərinin dövlət reyestrində dəyişikliklərin edilməsi*

Gömrük brokerinin lisenziyası yenidən rəsmiləşdirildikdə, dövlət reyestrində müvafiq dəyişikliklər edilir.

## *4. Gömrük brokerlərinin dövlət reyestrindən çıxarılması*

4.1. Gömrük brokerinə verilmiş lisenziyanın müddəti bitdikdə, lisenziyanın fəaliyyəti dayandırıldıqda və ya lisenziya ləğv edildikdə gömrük brokeri dövlət reyestrindən çıxarılır.

4.2. Lisenziyası bərpa olunmuş gömrük brokeri yenidən gömrük brokerlərinin dövlət reyestrinə daxil edilir.

---

*«Gömrük brokerlərinin dövlət reyestrinin aparılması Qaydaları»na*
***əlavə***

# Gömrük brokerlərinin dövlət qeydiyyatına alınmasına dair reyestrin forması

| Sıra №- | Təşkilatın adı və | Əlaqə vasitələri | Azərbaycan | Gömrük |
|---|---|---|---|---|

| si | hüquqi ünvanı | (telefon, faks nömrələri və elektron poçt ünvanı) | Respublikasının Vergilər Nazirliyində hüquqi şəxs kimi qeydiyyata alınması barədə təsdiqedici sənədin nömrəsi və tarixi | brokerinin dövlət reyestrinə daxil edilməsi tarixi |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| | | | | |

| Gömrük brokerinin dövlət reyestrindən çıxarılması tarixi | Gömrük brokerinin dövlət reyestrindən çıxarılmasının səbəbləri | Təşkilatın gömrük brokeri fəaliyyətini həyata keçirən ayrı-ayrı struktur bölmələrinin siyahısı və ünvanı | Hüquqpozma haqqında məlumat | Gömrük brokerinin gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssisləri barədə məlumat |
|---|---|---|---|---|
| 6 | 7 | 8 | 9 | 10 |
| | | | | |

*© «VneshExpertService» LLC*